Azərbaycan - regionda inkişafın və tərəqqinin adı

Cənubi Qafqazın aparıcı dövləti olan Azərbaycan strateji mövqeyi, zəngin təbii sərvətləri və balanslaşdırılmış xarici siyasəti ilə regionda həm iqtisadi, həm də siyasi gücə çevrilib. Dövlətimiz həm də dayanıqlı inkişafı təşviq edən iqtisadi strategiyaları ilə dünyanın diqqət mərkəzindədir. Şərq ilə Qərb arasında körpü rolunu oynayan ölkəmiz nəinki enerji sahəsində qlobal oyunçuya çevrilib, həm də nəqliyyat, logistika və humanitar sahələr üzrə beynəlxalq əməkdaşlıqda öz mövqeyini gücləndirib. Bakı-Tbilisi-Ceyhan, TANAP və Zəngəzur dəhlizi kimi layihələr Azərbaycanın regionda geosiyasi çəkisini daha da artırıb, ölkənin beynəlxalq sistemdə strateji mövqeyini təsdiqləyib.

Bu gün dünyada ötən əsrdən qalan mexanizmlər öz işləkliyini itirmək üzrədir. Artıq beynəlxalq əlaqələr yeni güclər və yeni siyasətlər əsasında formalaşır. Ölkə başçımız cənab İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində bu məsələyə toxunub: "İndi heç kimə sirr deyil ki, yeni dünya nizamı formalaşdırılır. Hesab edirəm ki, biz bu prosesin başlanğıcındayıq, bir çox boşluqlar yaranmaqdadır və yaranacaq. İkinci Dünya müharibəsindən sonra yaranmış sistem artıq öz potensialını itirib. Bunu bir çox yerlərdə gedən proseslər, münaqişələr, müharibələr və sair hadisələr göstərir. Eyni zamanda aparıcı Qərb ölkələrində siyasi və mənəvi böhran da göz qabağındadır. Yəni bu gün Qərbin üzləşdiyi vəziyyəti ən çox tənqid edən Qərbin aparıcı ölkəsinin seçilmiş prezidentidir, haqlı olaraq tənqid edir. Çünki bu sistem artıq tükənib".

(davamı 3-cü səhifədə)

(əvvəli 1-ci səhifədə)

Yeni dünya nizamının formalaşmasında Azərbaycan fəal iştirakçı və öz sözünü deyən dövlətlərdən biri kimi çıxış edir. Qarabağ münaqişəsinin həlli ilə regionda yeni dövrün başlanğıcını elan edən ölkəmiz regional təhlükəsizliyin, sabitliyin və inteqrasiyanın təmin olunmasında aparıcı rola sahibdir. Azərbaycanın regionda və dünya miqyasında artan rolu onun iqtisadi gücü, diplomatik təşəbbüsləri və strateji əhəmiyyəti ilə sıx bağlıdır. Qloballaşan dünyada ölkəmizin öz maraqlarını müdafiə etməsi və eyni zamanda beynəlxalq birliyə töhfə verməsi onu müasir dövrün nümunəvi inkişaf edən dövlətlərindən birinə çevirir. Bu baxımdan, Azərbaycanın yeni dünya düzənində xüsusi yer tutacağı artıq qaçılmaz bir həqiqət kimi görünür.

Azərbaycan regional güc və qlobal enerji mərkəzi kimi həm də beynəlxalq miqyasda ədalətin, suverenliyin və bərabərhüquqlu münasibətlərin müdafiəçisi olaraq öz mövqeyini nümayiş etdirir. Ədalət prinsiplərini əsas tutan ölkəmiz kiçik və ada dövlətlərin hüquqlarının qorunması, müstəmləkəçilikdən yaranan problemlərin aradan qaldırılması, "böl və hökm sür" kimi iyrənc yanaşmaların ifşa edilməsi istiqamətində ciddi səy göstərir. Beynəlxalq arenada güc balansının qorunması və kiçik dövlətlərin hüquqlarının təmin olunması məsələsində prinsipial mövqe tutur. Beynəlxalq platformalarda rəsmi Bakı öz çıxışlarında vurğulayır ki, heç bir dövlət özünün ərazisi, iqtisadi gücü və ya coğrafi mövqeyinə görə ayrıseçkiliklə üzləşməməlidir. Kiçik və ada dövlətlər tez-tez iri güclərin siyasi və iqtisadi təzyiqlərinə məruz qalaraq inkişaf etməkdə çətinlik çəkirlər. Bu kontekstdə ölkəmiz həmrəyliyin və əməkdaşlığın vacibliyini önə çəkərək, hər bir ölkənin hüquqlarının və milli maraqlarının təmin olunması üçün dəstək çağırışları ilə çıxış edir.

Qoşulmama Hərəkatına sədrliyi dövründə ölkəmiz müstəqillik, bərabərhüquqlu əməkdaşlıq və suverenlik prinsiplərini müdafiə edərək kiçik dövlətlərin haqlarının qorunması istiqamətində nümunəvi liderlik nümayiş etdirdi. Pandemiya dövründə qlobal həmrəylik çağırışları, xüsusilə inkişaf etməkdə olan ölkələrə yardımların artırılması ilə bağlı təşəbbüsləri buna bariz nümunədir.

Xüsusilə Afrika, Asiya və Karib hövzəsi dövlətlərinin müstəqillik və öz müqəddəratını həll etmə hüquqlarını dəstəkləyən Azərbaycan beynəlxalq sistemdə qeyri-bərabər münasibətlərin aradan qaldırılması üçün çağırışlar edir. Ölkə başçımızın çıxışlarında tez-tez vurğulanır ki, sülh və əminamanlıq yalnız hər bir xalqın öz iradəsi ilə qərarlar qəbul etməsi və heç bir kənar gücün müdaxiləsinə məruz qalmaması ilə mümkündür.

XX əsrdə müstəmləkə dövlətlərinin azadlıq hərəkatlarını dəstəkləyən beynəlxalq mübarizənin nəticələri hələ də tam olaraq təmin edilməyib. Bəzi güclər müasir dövrdə iqtisadi, siyasi və mədəni təsirlər vasitəsilə müstəmləkəçiliyi yeni formada davam etdirmək istəyirlər. Azərbaycan bu kimi təcrübələrin əleyhinə çıxaraq Qarabağ məsələsindəki ədalətli mövqeyini beynəlxalq arenaya təqdim edir. Həmçinin müstəqillik və suverenlik prinsiplərinə əsaslanaraq dünya xalqlarının ədalətli mübarizəsinə dəstək olur.

Yeni dünya düzənində Azərbaycan ədalət, bərabərlik və suverenlik prinsiplərini ön plana çəkən aktor kimi tanınır. Bu yanaşma dövlətimizin daxili siyasətində, beynəlxalq əlaqələrində və təşəbbüslərində öz əksini tapır. Dünyanın müxtəlif yerlərində münaqişələrin artdığı, iri güclərin maraqlar uğrunda mübarizəsinin yeni qarşıdurmalar yaratdığı bir dövrdə Azərbaycanın çağırışları daha geniş auditoriya tərəfindən eşidilir.

Prezident İlham Əliyevin milli maraqlara əsaslanan uzaqgörən siyasəti, prinsipial və qətiyyətli liderlik keyfiyyətləri Azərbaycanı yalnız regional aktor deyil, eyni zamanda qlobal məsələlərdə söz sahibi olan bir dövlətə çevirmişdir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan müstəqil siyasət həyata keçirərək, heç bir xarici gücün diktəsinə boyun əyməyən bir dövlət nümunəsi göstərir. Ölkə başçımızın beynəlxalq arenadakı çıxışları, Ermənistanın dezinformasiya cəhdlərinə qarşı prinsipial mövqeyi və dünya ictimaiyyətini ədalətli mövqe tutmağa çağırışı onun qətiyyətli lider olduğunu bir daha sübut edir.

Azərbaycan həm regionda, həm də qlobal miqyasda tarazlaşdırılmış və çoxşaxəli xarici siyasət kursu yürüdür. Əsasən enerji siyasəti üzərində qurulan əlaqələr Azərbaycanın regional və qlobal gücə çevrilməsində mühüm rol oynayır. Bu gün ölkəmizin Avropanın enerji təhlükəsizliyində strateji faktora çevrilməsi İlham Əliyevin uzaqgörən siyasətinin nəticəsidir. Əhalinin sosial rifahının yüksəldilməsi, iqtisadiyyatın şaxələndirilməsi və regionun tarazlı inkişafı dövlət siyasətinin prioritet istiqamətləridir. Vətən müharibəsindən sonra azad olunmuş torpaqlarda sürətlə aparılan quruculuq işləri, Şuşanın "mədəniyyət paytaxtı" elan olunması, Qarabağın dirçəldilməsi üçün innovativ layihələrin həyata keçirilməsi Prezident İlham Əliyevin qətiyyəti, uzaqgörən siyasəti və xalqına bağlılığının bariz göstəricisidir. Onun liderliyi ilə ölkəmiz regionda və qlobal miqyasda da yeni dövrün əsas aktorlarından biri kimi çıxış edir və ədalətli dünya nizamı uğrunda mübarizəni davam etdirir.

Ləman TƏHMƏZ,
"Respublika".

Respublika .- 2025.- 11 yanvar (№ 05).- S.1;3.